**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**VİLAYƏT ZAHİD oğlu RAMAZANOV**

# TİKİNTİ MATERİALLARI SƏNAYESİNİN İNKİŞAFINDA İNVESTİSİYADAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI

**İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2017**

Dissertasiya işi Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Rəna Polad qızı Sultanova**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Beykəs Seyfulla oğlu Xıdırov**

iqtisad üzrə fəlsəfə doktoru
**Ləman Aydın qızı Məmmədova**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu**

Dissertasiya işinin müdafiəsi 23 may 2017-ci il tarixində saat 16.00-da Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, AMEA-nın İqtisadiyyat İnstitutu

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 21 aprel 2017-ci ildə göndərilmişdir.

**D.01.181 Dissertasiya Şurasının**
**elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru** **S.T. ŞIXƏLİYEVA**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir dövrdə bazar iqtisadiyyatı şəraitində Azərbaycan iqtisadiyyatının çoxşaxəli inkişafı, ilk növbədə, kapital qoyuluşlarının ölkə iqtisadiyyatına yönəldilməsindən və onlardan səmərəli istifadə edilməsindən bilavasitə asılıdır. Belə ki, ölkə iqtisadiyyatı sahələrindən biri olan tikinti materialları sənayesində investisiya qoyuluşlarının düzgün həyata keçirilməsi və onlardan istifadə, bütövlükdə, ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasında mühüm rol oynayır. Dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycan Respublikasında da tikintinin infrastruktur sahələrinin təkmilləşdirilməsi, bununla yanaşı tikinti materialları sənayesinin inkişaf etdirilməsi əhalinin maddi rifahının yaxşılaşdırılmasında və sosial təminatının yüksəldilməsində mühüm rol oynayır.

Ümumiyyətlə, tikinti materialları sənayesi üzrə investisiya siyasətinin düzgün reallaşdırılması real maliyyə mənbələrinin təyin olunmasını, yönəldilən investisiya resurslarından səmərəli istifadəni, eləcə də bu sahənin inkişafını təmin edir. Tikinti sektorunun sürətli inkişafı tikinti materialları sənayesinə qoyulmuş yerli və xarici investisiyaların həcmini əhəmiyyətli dərəcədə artırmışdır.

Hazırda Azərbaycan Respublikası Prezidenti, Milli Məclis və Nazirlər Kabineti tərəfindən ölkə iqtisadiyyatın inkişafına dair 120-dən çox qanunvericilik və digər normativ aktlar (sənədlər) qəbul edilmişdir ki, onlardan "İnvestisiya fəaliyyəti haqqında", "İpoteka Haqqında" qanunlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ödənilməli olan sadələşdirilmiş verginin hesablanması üçün ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə əmsalları" haqqında qərar, "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət proqramı"nı, "Kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikası reqionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqram"larının (2004-2008; 2009-2013; 2014-2018-ci illər)" ölkə iqtisadiyyatının dinamik inkişafının təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında əhəmiyyətli dərəcədə rol oynayır.

Qabaqcıl inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, iqtisadi inkişafın təmin olunması yerli və xarici investisiyalardan səmərəli istifadə

tikinti sahəsi üzrə sahibkarlıq fəaliyyətinin yeni obyektlərinin yaradılmasında, tikinti materialları istehsal edən müəssisələrin texniki baxımdan silahalndırılmasına, onların modernləşdirilməsinə imkan yaradır. Tikinti materialları sənayesi üzrə investisiya qoyuluşlarının prioritet istiqamətlərinin müəyyən edilməsində müəssisə tərəfindən investisiyanın əsaslandırılması və qiymətləndirilməsi metodikasının tərtib olunmasının vacibliyi ortaya çıxır. Beləliklə, tikinti materialları müəssisələrinə investisiya qoyuluşlarının axının sürətlənməsi və onların düzgün istiqamətləndirilməsi, öz növbəsində, investisiyadan səmərəli istifadənin artırılmasını təmin edir ki, bu da seçilmiş tədqiqatın əhəmiyyət və aktuallığını müəyyən edir.

**Problemin öyrənilməsi səviyyəsi.** Tikinti sektorunun, o cümlədən, tikinti materialları sənayesinin inkişafının ayrı-ayrı problemləri olkə və xarici alimlərin tədqiqatlarında geniş tədqid edilmişdir.

Belə ki, xarici ölkə alimlərindən S.İ.Abramov, V.P.Antonov, R.N.Stoun, A.N.Asaul, İ.T.Balabanov, D.Ekkert, C.Fridman, T.S.Harrison, Manfred, A.B.Krutik, T.A.Leberman, V.A.Qeremkin, Q.M.Sternik, E.İ.Tarasliviç və s. öz tədqiqatlarında ölkə iqtisadiyyatı sahələrində investisiyadan istifadə problemlərini tədqiq etmişdirlər.

Azərbaycanın iqtisadçı alimlərindən Ə.Q Əlirzayev, S.H. Hacıyev, T.Q.Hüseynov, İ.Ə.Mehdiyev, Ş.M.Muradov, M.A.Mövsumov, Ə.X.Nuriyev, Q.R.Qeybullayev, V.M.Şirəliyev, Z.Ə.Səmədzadə, R.P. Sultanova və başqaları tikinti sektorunun, o cümlədən tikinti materialları sənayesinin müxtəlif problemlərinin araşdırılmasında tədqiqatlar aparmışlar. Yuxarıda qeyd olunan iqtisadçı alimlərin tədqiqatlarının əhəmiyyətini azaltmadan müasir dövrdə tikinti materialları sənayesinin inkişafinda investisiyadan səmərəli istifadə problemi ilk dəfə olaraq tədqiq edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi tikinti materialları sənayesinin inkişafında investisiyadan istifadəni qiymətləndirərək, onun səmərəliliyinin artırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlamasından ibarətdir.

Tədqiqat işində qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həll edilməsi məqsədəuyğun olunmuşdur:

-ölkə iqtisadiyyatının inkişafında investisiyanın rolunun dəyərləndirilməsi;

-tikinti materialları sənayesində investisiya təminatı mənbələrinin müəyyənləşdirilməsi;

-Azərbaycan Respublikasının tikinti materialları sənayesində

investisiyalardan istifadə vəziyyətinin təhlil edilməsi;

-tikinti müəssisələrinin investisiya cəlbediciliyinin öyrənilməsi;

-tikinti materialları sənayesində innovasiyaların tətbiqində investisiyalardan istifadənin qiymətləndirilməsi;

-tikinti materialları müəssisələrində maliyyə təminatının aşkar edilməsi;

-respublikanın tikinti sektorunda müəssisələrin inkişafı baxımdan ipoteka kreditlərinin verilməsinin əsaslandırılması;

-mərkəz və regionlar üzrə tikinti materialları müəssisələrinin inkişafında yerli və xarici investisiyalardan istifadə imkanlarının göstərilməsi;

-Azərbaycanın tikinti materialları sənayesinin perspektiv inkişaf istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın **obyekti** tikinti materialları sənayesi və bu sahə üzrə fəaliyyət göstərən sahəvi təşkilatlar, tədqiqatın **predmetini** isə tikinti materialları sənayesinin inkişafında investisiyalardan istifadənin səmərəliliyinin artırılması istiqamətləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Azərbaycan respublikasının və xarici ölkə alimlərinin investisiya ilə bağlı əsərləri, rəsmi dövlət təsisatlarının, o cümlədən Azərbaycan Respublikası Prezidentinin fərmanları, sərəncamları, Nazirlər Kabinetinin və Milli Məclisin qərarları, müvafiq dövlət orqanları tərəfindən hazırlanmış və təsdiq olunmuş normativ-hüquqi aktlar, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sərəncamları və s. təşkil edir.

Aparılmış tədqiqat prosesində müşahidə, məntiqi ümumiləşdirmə, statistik qruplaşdırma, müqayisəli təhlil və iqtisadi-riyazi təhlil metodlarından geniş istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin illər üzrə statistik icmalları, İqtisadiyyat Nazirliyinin illik hesabatları və statistik məcmuələri, İnternet saytlarının informasiya bazası, fərdi şəkildə aparılmış hesabatların nəticələri və s. təşkil etmişdir.

**Tədqiqat işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

-ölkə iqtisadiyyatının inkişafında investisiyanın rolu dəyərləndirilmisdir;

-tikinti materialları sənayesində investisiya təminatı mənbələri aşkar edilmişdir;

-Azərbaycan Respublikasının tikinti materialları sənayesində

kompleks təhlil əsasında investisiyadan istifadə vəziyyəti öyrənilmişdir;

-tikinti müəssisələrinin investisiya cəlbediciliyi müəyyən edilmişdir;

-tikinti materialları sənayesində innovasiyaların tətbiqində investisiyalardan istifadənin qiymətləndirilməsi, eləcə də onun ağac emalı sahəsində investisiya və məhsul istehsalı arasında model əsasında asılılıq verilmişdir;

-tikinti materialları müəssisələrində maliyyə təminatı mənbələri aşkar edilmişdir;

-tikinti materialları sənayesinin inkişaf etdirilməsində ipoteka kreditlərinin verilməsi əsaslandırılmışdır;

-mərkəz və regionlar üzrə tikinti materialları müəssisələrinin inkişafında yerli və xarici investisiyalardan səmərəli istifadə göstərilmişdir;

-Azərbaycanın tikinti materialları sənayesinin perspektiv inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində əldə olunmuş nəticələrdən tikinti materialları sənayesi üzrə investisiyaların cəlbi mexanizmlərinin təkmilləşdirilməsində, tikinti materialları müəssisələrinin inkişafına mane olan problemlərin aradan qaldırılmasında, regionlarda tikinti materialları sənayesi üzrə müəssisələrin fəaliyyətinin kiçik və orta sahibkarlıq timsalında inkişaf etdirilməsində, ipoteka kreditlərinin verilmə mexanizmlərinin sadələşdirilməsində və ölkənin yeni sosial-iqtisadi inkişaf strategiyasının formalaşmasında istifadə oluna bilər.

Dissertasiya işinin nəticələrindən tikinti sektorunun, o cümlədən tikinti materialları sənayesinin müxtəlif iqtisadi aspektlərini araşdıran doktorantlar, tədqiqatçılar, mütəxəssislər və s. tərəfindən istifadəsi mümkündür.

Tərtib olunmuş dissertasiya işinin əsas müddəaları tikintinin iqtisadiyyatı sahəsində layihələrin həyata keçirilməsində, bu sahədə iqtisadi qərarların qəbul olunmasında, həmçinin ali məktəblərdə "Tikintidə investisiya qoyuluşları", "Tikintinin iqtisadiyyatı" eləcə də tikinti ilə əlaqəli digər müxtəlif texniki-iqtisadi fənlərin tədris prosesində istifadəsi məqsədəuyğundur.

Dissertasiyanın əsas nəticələri "Oxçuoğlu İnşaat" MMC tikinti-təmir şirkətində (arayış№1/18, 25 yanvar 2016-cı il) və "Zetaş-AGT" MMC tikinti şirkətində (arayış №ZA102, 25 yanvar 2016-cı il) tətbiq edilir.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiyanın əsas nəticələri .Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun "Gənc Alimlər" klubunda, elmi əsərlərində, müxtəlif elmi-praktiki jurnallarında,

beynəlxalq və respublika əhəmiyyətli "İiqtisadiyyatın innovativ inkişafının problemləri və perspektivləti" XXVIII beynəlxalq elmi-praktiki konfransda məruzə və müzakirə olunmuş, nəşr edilmişdir.
Dissertasiya işinin mövzusu üzrə 7 məqalə, o cümlədən xaricdə 2 məqalə nəşr olunmuşdur.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, üç fəsil, 9 paraqraf, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tərtib olunmuş dissertasiya işinin ümumi həcmi 155 səhifədən, o cümlədən 14 cədvəldən, 6 qrafikdən və 2 sxemdən ibarətdir.

**Dissertasiya işinin mündəriciatı**

**Giriş**

**I Fəsil. Tikinti materialları sənayesinin inkişafında investisiyadan istifadənin tədqiqinin nəzəri-metodoloji əsasları**

1.1. Azərbaycan iqtisadiyyatının inkişafında investisiya qoyuluşlarının rolu

1.2. Tikinti materialları müəssisələrində investisiyanın mahiyyəti, sturuktur və proqnozlaşdırma metodları

1.3. Tikinti materialları sənayesində investisiya təminatı mənbələri

**II Fəsil. Tikinti materialları sənayesində investisiyadan səmərəli istifadənin vəziyyətinin təhlili və qiymətləndirilməsi**

2.1. Azərbaycanın tikinti materialları sənayesinin istehsal potensialı və investisiya cəlbediciliyi

2.2. Tikinti materilalları sənayesində innovasiyaların tətbiqində investisiyalardan istifadə

2.3. Tikinti materialları müəssisələrinin maliyyə təminatının öyrənilməsi

**III Fəsil. Azərbaycan Respublikasının tikinti materialları sənayesində investisiyalardan istifadənin səmərəliliyinin artırılması yolları**

3.1. Azərbaycan Respublikasında tikinti materialları sənayesinin rəqabətqabiliyyətliliyinin artırılması

3.2. Tikinti sektorunun inkişafında investisiya artımının təmin edilməsində ipotekadan istifadənin təkmilləşdirilməsi

3.3. Azərbaycanın tikinti materialları sənayesinin prespektiv inkişaf istiqamətləri

**Nəticə və təkliflər**

**İstifadə edilmiş ədəbiyyat**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1.Tikinti materialları sənayesinin inkişafında investisiyadan istifadənin səmərəliliyinin artırılmasının nəzəri-metodoloji əsasları tədqiq edilərək onun təmin edilməsinin meyar və göstəriciləri təsnifləşdırılmışdır.**

İnvestisiya-gəlir və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitlərindən, həmçinin maddi və intelektual sərvətlərdən ibarətdir. Tikinti materialları müəssisələrində istehsal infrastrukturunun inkişafına, material ehtiyyatlarının artırılmasına, müəssisədə istehsalın şaxələndirilməsinə, modernləşdirilməsinə, sosial infrastrukturun inkişafına, elm və kadr hazırlığına investisiyanı-investisyalaşmanın əsas istiqamətləri kimi fərqləndirmək məqsədə uyğundur. İnvestisiya əsas kapitalın artırılması və yeniləşdirilməsi, innovasiyalı inkişafı, sturuktur təkmilləşmələrinin həyata keçirilməsi proseslərinə, istehsalın səmərəliyinin yüksəldilməsinə və digər bu kimi vəzifələrin icrasına yönəldilir. Burada tikinti materialları sənayesinin, tikinti təşkilatları və tikinti istehsalının təşkili problemlərinin araşdırılması ilə yanaşı, ilk növbədə, investorların və alıcıların tələblərinə cavab vermələri təhlil edilmişdir.

Bazar iqtisadiyyatı şəraitində müasir tələblərə cavab verən inşaat məhsulunun istehsalı tikinti materialları sənayesinin qarşısında mühüm tələblər qoyur. Tikinti materialları sənayesinin strukturunun dəyişdirilməsinə daha çox xarici amillər təsir edir. Bu əsasən istehlakçının inşaat məhsuluna və xidmətə yüksək tələbkarlığından irəli gəlir.

Müstəqilliyimizin ilk illərində ölkəmizdə investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə "Investisiya Fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur. Qanunda Azərbaycan Respublikasının ərazisində investisiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi şərtləri müəyyənləşdirilmiş, eyni zamanda mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verilmişdir. Hazırda ölkəmizdə mərhələli şəkildə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı

tədbirlər həyata keçirilməkdədir. Son dövrlər ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən stimullaşdırılmış tədbirlər həyata keçirilir.

Tikinti materialları sənayesinə investisiya qoyuluşları istehsal və qeyri-istehsal əhəmiyyətli əsas fondların təkrar istehsal prosesində səmərəli istifadəsinin təmini üçün dövlətin hüquqi və fiziki şəxslərin praktiki fəaliyyətinin, maliyyə resurslarının əsas kapitala (kapital qoyuluşlarına) investisiya növləri formasında yönəldilməsi deməkdir.

Azərbaycan Respublikasında tikinti materialları sənayesinin dünya standartlarına cavab verməsi məqsədilə, bu sahədə fəaliyyət göstərən tikinti müəssisələri istənilən vaxt öz biznes strategiyalarını dəyişə bilməlidir. Hər bir vəziyyətdə düzgün qərarlar cıxarmalı və mühəndis xidmətlərindən səmərəli istifadə etməlidirlər. Eyni zamanda idarəetmədə qarşıya çıxan çətinliklər bazarda olan rəqabət (konkret olaraq inhisarla bağlı), süni qiymət artımı tikinti materialları sənayesi müəssisələrində biznes-layihə məsələlərini nəzarətdə saxlamağa məcbur edir. Bakı şəhərində tikinti materialları sənayesinin təşkilatı strukturunun mobilliyinin yüksək səviyyədə olması, təşkilatı-idarəetmə sxeminin səmərəli qurulması, müəyyən dəyişikliklər zamanı ciddi fəsadlar törətmir. Bazarda olan müəyyən konfiliktlər əvvəlcədən tikinti təşkilatlarının menecerləri tərəfindən nəzərə alınmalıdır. Belə hallar menecerlər tərəfindən bazarda olan rəqabət mübarizəsi kimi qəbul edilərək əvvəlcədən müəyyən tədbirlər görülməsini tələb edir. Məhz bu baxımdan Bakı şəhərində menecment işini təşkil etmək daha rahat və asandır. Bunun üçün beynəlxalq təcrübədən istifadə etməklə, yerli və xarici bazarların xüsusiyyətləri nəzərə alınmalıdır.

Tikinti materialları müəssisələrində istehsalatın səmərəliliyin və keyfiyyətin artırılmasında elm və texnikanın nailiyyətlərinin istifadəsi mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan da hər bir tikinti materialları müəssisələrində elmi işlər üzrə məsləhətçinin olması vacibdir. Müasir bazar iqtisadiyyatı şəraitində elmi-texniki tərəqqinin inkişaf mərhələlərini aşağıdakı formada göstərmək olar:

-tikinti materialları sənayesində mexanikləşdirilmə və avtomatlaşdırılma;

-yeni material, konstruksiya və məmulatların tətbiqi;

-işin keyfiyyətinin və əmək məhsuldarlığının artırılmasını təmin edən qabaqcıl texnologiyanın və tikintinin təşkilinin mütərəqqi formalarının tətbiq edilməsi.

Müasir iqtisadi şəraitdə Azərbaycan Respublikasında tikinti materialları sənayesi əsasən aşağıdakı sahələrdən ibarətdir:

-mineral-tikinti xammalının (qum, çınqıl, müxtəlif daş, mərmər) çıxarılması;

-hörgü materiallarının (sement, əhəng, gips) istehsalı;

-bina və tikililər üçün müxtəlif divar materiallarının, məmulat və konstruksiyaların hazırlanması daxildir.

Təsərrüfatın inkişafı, əhalinin yaşayış şəraitinin təşkili və yaxşılaşdırılması tikinti materialları sənayesi olmadan mümkün deyildir. Tikinti sektoru təsərrüfat kompleksinin mühüm tərkib hissəsi hesab olunur. Azərbaycanda Ümum Daxili Məhsulun strukturunda bu sahə sənaye və kənd təsərrüfatından sonra üçüncü yeri tutur. Azərbaycan tikinti materialları sənayesi üçün rəngarəng xammal ehtiyatı ilə çox zəngindir. Belə ki, ölkədə 1000-ə qədər mineral tikinti xammal yatağı mövcuddur ki, onlardan mişarlıq əhəng daşı, but daşı, üzlük əhəng daşı, bişmiş kərpic və kirəmit gili, çınqıl-qum, sement xammalı (gil süxurları), karbonatlı daşlar-anhidrid kimi məhsullar əsas yer tutur. Təəssüflə vurğulamaq lazımdır ki, ehtiyatların yalnız 25%-indən istifadə olunur. Məsələn, kiçik Qafqazda və Abşeron yarımadasında daha çox tikinti materialları yataqları aşkar edilmişdir.

Azərbaycan Respublikasının əsas tikinti materialları sənayesi məhsullarına sement, müxtəlif ölçülü dəmir-beton konstruksiyalar və panellər, kubik-daş, kərpic, şüşə, şifer, absestsement borular, istilik-izolyasiya, polimer və s. aiddir. Bundan başqa, son illərdə linoleum, yüngül doldurucu mineral tikinti materialları, mərmər, travertin kimi bəzək materialları, çuqun və dəmirdən santexnika məmulatları da istehsal olunmaqdadır.

Tikinti materialları sənayenin tərkibində məhsul istehsalına görə birinci yeri dəmir-beton konstruksiyaları istehsalı, ikinci yeri sement sənayesi, üçüncü yeri isə təbii divar daşı təşkil edir.

Hazırda Abşeron və onun ətraf ərazilərində mənimsənilməsi əlverişli olan müxtəlif növ tikinti daşları, şüşə və tikinti qumu, bitum, keramika xammalı ehtiyatları vardır. Bu ehtiyatların bazasında Bakı şəhəri, Qaradağ, Maştağa, Binəqədi, Suraxanı rayonlarında, eləcə də Sumqayıt şəhərində tikinti materialları sənayesi yaranmışdır.

Ümumiyyətlə, ümumi respublika tikinti-quraşdırma işlərinin 60%-ə qədəri , bu ərazilərə düşür. Abşeron iqtisadi rayonu üzrə tikinti materialları sənayesi həm də respublikanın başqa regionları ilə müqayisədə yüksək kompleksliliyi və intensivliyi ilə fərqlənir. Məsələn, respublikada istehsal edilən mişar daşının beşdə dördü Abşeron Daş karxanalarının payına düşür. Qaradağ, Güzdək, Şüvəlan və Korgöz mexanikləşdirilmiş daş karxanalarında daha çox məhsul istehsal olunur. Belə ki, Qaradağ sementi,

Bakı Asbestsement, 2, 3, 4 saylı dəmir-beton konstruksiyaları zavodları respublikanın tikinti materialları sənayesnin ən böyük müəssisələridir. Burada həmçinin bitum, çınqıl-qum, kərpic, şüşə, asbest-şifer, kafel və tikinti üçün digər saxsı məmulatları istehsal olunur.

Azərbaycan Respublikasında əsas sement istehsalı müəssisəsi olan Qaradağ sement zavodunda şifer üçün xüsusi sement, 400 və 500 markalı portland sementi, neft-qaz quyuları üçün tıxac sementi, 200 markalı üzlük sement və başqa sement növləri istehsal edilir. Zavodda ildən-ilə sement istehsalının həcmi artırılsa da, respublikanın bu mühüm tikinti məhsuluna olan tələbatı hələlik tam olaraq ödənilmir.

Gəncə-Qazax iqtisadi rayonu mineral mənşəli təbii tikinti materialları ehtiyatı ilə zəngin olan bir bölgədir. Beləki, Gəncə şəhərində iri panelli evtikmə və sənaye-tikinti kombinatı, Qazax, Daşkəsən və Tovuz rayonlarında isə müxtəlif çeşidli tikinti məhsulları kombinatı regionun əsas müəssisələri hesab olunur. Vurğulamaq lazımdır ki, respublikada tikinti materialları sənayesi Mingəçevir-Şəki rayonu üzrə daha yüksək inkişaf etmişdir. Mingəçevirdə dəmir-beton məmulatları istehsalı, iripanelli evtikmə, qum-çınqıl, termik izolyatorlar buraxılışı tikinti materialları sənayesinin aparıcı sahələri kimi qəbul olunur. Başqa sahələr üzrə kərpic, saxsı məmulatları, əhəng, gəc istehsal olunur ki, onlar da əsasən yerli əhəmiyyətlidir. Aşağı Kür tikinti materialları sənayesi rayonu Şirvan, Hacıqabul, Imişli və Bəhramtəpə (tikinti) sənaye qovşaqlarını əhatə edir.

Tikinti materialları sənayesində enerjiyə qənaət strategiyası, habelə əməyin mühafizəsi və təhlükəsizliyi, insan kapitalının inkişafı sahəsində görülən işlər beynəlxalq standartlara uyğun olmalıdır. Bu baxımdan Azərbaycan Respublikasında fəaliyyət göstərən Holsim şirkətini dörd il mütəmadi olaraq Dou ons Davamlılıq Indeksində "Sənayenin Lideri" kimi tanınır. 2015-ci ildə Davos şəhərində keçirilən Ümumdünya Iqtisadi Forumunda Aktivlərin Davamlı Menecmenti Qrupu "Praysuoterhaus Kupers" şirkəti ilə birlikdə Holcim şirkətini "Sektor Lideri" və "Qızıl Dərəcə" fərqlənmə mükafatları ilə təltif etmişlər. Holcim şirkəti inşaat materialları istehsalı sektorunda dünyanın aparıcı şirkətlərindən biridir və "Qaradağ Sement" ASC-nin səhmlərinin 69%-nə sahibdir. "Qaradağ Sement" ASC-nin digər səhmdarları Azərbaycan Investisiya Şirkəti (10%), Avropa Yenidənqurma və Inkişaf Bankı (10%) və 800-dən artıq fərdi səhmdardır (10,6%).

Müasir qloballaşma şəraitində müxtəlif mülkiyyət formalı müəssisələr tikinti materialları sahəsində istehsal proqramlarını müstəqil hazırlamalı və onların reallaşdırılması üçün maliyyə resurslarını təmin

etməlidirlər.

İşdə ölkəmizdə fəaliyyət göstərən tikinti materialları sənayesinin investisiya fəaliyyəti tədqiq edilmiş və müasir iqtisadi şəraitdə onun maliyyələşdirilmə mənbələri göstərilmişdir:

1. büdcə vəsaitləri hesabına;
2. xarici investisiyalar;
3. başqa təşkilatların borc vəsaitlərinin cəlbi;
4. müəssisə və təşkilatların öz vəsaitləri hesabına;
5. bank kreditləri;
6. vətəndaşların xüsusi vəsaiti və sair vəsaitlər aid edilir.

**Cədvəl 1**

**Azərbaycan Respublikasının tikinti materialları sənayesinin ağac emalı sahəsinə 2005-2014-cü illər üzrə məhsul istehsalının yönəldilmiş investisiyaya asılılığı**

| İllər | Ağac emalı və ağacdan məmulatların istehsalı, mln.manat | İnvestisiyalar, mln. man. | Müəssisələr | İşləyənlərin orta siyahı sayı, min nəfər | Bir işçinin orta aylıq əmək haqqı, manat | Ilin sonuna əsas fondların mövcudluğu, mln. manat |
|---|---|---|---|---|---|---|
| 2005 | 9,60 | 0,10 | 74,00 | 1.2 | 52.8 | 17.6 |
| 2006 | 12,20 | 1,40 | 77,00 | 1.5 | 79.8 | 19.1 |
| 2007 | 18,40 | 0,90 | 79,00 | 1.6 | 148.0 | 21.7 |
| 2008 | 15,60 | 0,50 | 79,00 | 1.5 | 179.7 | 23.3 |
| 2009 | 10,60 | 0,50 | 87,00 | 1.7 | 182.8 | 24.0 |
| 2010 | 12,10 | 0,20 | 73,00 | 1.6 | 316.6 | 54.3 |
| 2011 | 14,40 | 98,30 | 72,00 | 1.6 | 270.7 | 54.7 |
| 2012 | 11,80 | 30,10 | 68,00 | 1.5 | 372.3 | 47.7 |
| 2013 | 15,10 | 23,40 | 51,00 | 1,8 | 436,2 | 51,4 |
| 2014 | 19,20 | 15,00 | 48,00 | 2.0 | 467.5 | 54.4 |

**Mənbə:** cədvəl müəllif tərəfindən Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir.

Tikinti materialları sənayesinin inkişafında meşə və ağac emalı sənayesi xüsusi yeri tutaraq, sellüloz, kağız, süni lif, mebel və digər məhsulların istehsalını özündə cəmləşdirir. İri həcmlərlə meşə məhsulları tədarük edilən ölkələrdə meşə tədarükü ayrıca olaraq hasilat sənayesi qrupuna daxil edilir, hasilat həcmi kiçik olan ölkələrdə isə bu istehsalat

sahəsi taxta-şalban məhsulların istehsalının tərkibində olur və ölkələrin ümumi daxili məhsul istehsalında özünəməxsus yerə malikdir. Məhz bu baxımdan da dissertasiya işində Azərbaycan Respublikasında ağac emalı sənayesi 2005-2014-cü illər üzrə təhlil edilmiş və burada investisiya və məhsul istehsalı arasında asılılıq müəyyən edilmişdir. Dissertasiya işində "eviews" proqramı vasitəsilə qurulmuş modeldə bu sənaye sahəsinin inkişafına təsir edən amillər göstərilmiş və aşağıdakı kimi hesablanmışdır:

| **Variable** | **Coefficient** | **Std. Error** | **t-Statistic** | **Prob.** |
|---|---|---|---|---|
| X1 | 0.023258 | 0.042028 | 0.553381 | 0.6038 |
| X2 | -58842.68 | 64635.37 | -0.910379 | 0.4044 |
| X3 | 13668.34 | 4729.042 | 2.890298 | 0.0342 |
| X4 | -2749.631 | 5019.877 | -0.547749 | 0.6074 |
| X5 | -0.090750 | 0.103791 | -0.874354 | 0.4219 |
| R-squared | 0.527644 | Mean dependent var | | 13900000 |
| Adjusted R-squared | 0.149760 | S.D. dependent var | | 3211784. |
| S.E. of regression | 2961537. | Akaike info criterion | | 32.94717 |
| Sum squared resid | 4.39E+13 | Schwarz criterion | | 33.09846 |
| Log likelihood | -159.7358 | Hannan-Quinn criter. | | 32.78120 |
| Durbin-Watson stat | 2.201827 | | | |

$$Y2 = 0.0232576785299*X1 - 58842.6835184*X2 + 13668.3433464*X3 - 2749.63110147*X4 - 0.0907501695486*X5$$

$R^2$=0.527644

Burada:

Y2- ağac emalı və ağacdan məmulatların istehsalı, man;

X1-investisiyalar, manatla;

X2- muəssisələr;

X3- ışləyənlərin orta siyahı sayı, nəfər;

X4- bir işçinin orta aylıq əmək haqqı, manta;

X5- ilin sonuna əsas fondların mövcudluğu.

Yuxarıda qeyd olunan cədvəl 1-dən göründüyü kimi, Azərrbaycan Respublikasında ağac emalı sənayesinə yönəldilən investisiya öz iqtisadi səmərəliliyini qoruyub saxlayır. Bu isə cədvəl 1-in əsasında qurulmuş qrafikdə öz əksini tapır.

Qrafidən göründüyü kimi, Azərbaycan Respublikasında ağac emalı sənayesində investisiya qoyuluşları proqram təminatı ilə üst-üstə düşür. Bu

da bu sahədə investisiya qoyuluşlarının daha da iqtisadi səmərəli olduğunu göstərir.




**Qrafik.** Azərbaycan Respublikasında ağac emalı sənayesində investisiya və məhsul istehsalı arasında asılılıq

Araşdırma zamanı tikinti materialları sənayesinin maliyyə mənbələri daha çox öz vəsaitləri hesabına formalaşdığı aşkar olunmuşdur. Bu da ölkə daxilində sahibkarlıq fəaliyyətinin lazımi səviyyədə olmasınıdan xəbər verir. Belə nəticəyə gəlmək olur ki, respublikada fəaliyyət göstərən rəqabətqabiliyyətli tikinti materialları sənayesi ildən-ilə genişlənir.

**2. Tikinti materialları sənayesində investisiyadan səmərəli istifadənin vəziyyəti təhlil edilmiş və qiymətləndirilmişdir.**

Azərbaycanın tikinti materialları sənayesində investisiya qoyuluşlarının müasir vəziyyətinin təhlili, tikinti materilalları sənayesində innovasiyaların tətbiqində investisiyalardan istifadə və tikinti materialları müəssisələrinin maliyyə təminatı araşdırılmışdır.

Bu baxımdan dövlət tərəfindən ayrı-ayrı investorların fəaliyyətinin təmini üçün səmərəli iqtisadi mühitin formalaşdırılması mütləqdir. Məhz əlverişli iqtisadi mühitin mövcudluğu mili iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafını təmin edir.

Ümumiyyətlə, investisiya siyasətinin reallaşdırılması əsasən, real maliyyə mənbələrinin təyin olunmasını, mümkün investisiya resurslarından

səmərəli istifadəni, eləcə də iqtisadi inkişaf üçün zəruri olan əsas sahələrin inkişafını təmin edir.

Son illər ərzində iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin xüsusi çəkisinə nəzər salsaq görərik ki, 1997-2015-ci illər ərzində tikinti sektorunun payı tədricən artmışdır.

Azərbaycanın tikinti sektorunda son illər qeydə alınan əsas göstəricilərə nəzər salsaq görərik ki, 2005-2015-ci illər ərzində ciddi dinamik artım göstəriciləri qeydə alınmışdır. Məsələn, 2005-ci ildə əsas fondların istifadəyə verilmə göstəriciləri 4780670,3 min manat təşkil etmişdirsə, 2009-cu ildə bu göstərici müqayisə etdikdə 1,7 dəfə artaraq 6032292,8 min manat təşkil etmişdir. 2012-ci ildə bu göstərici 10194000 min manat olmuşdur. Məhsul istehsalı obyektlərinin tikintisinə 2005-ci ildə 4262797,1 min manat vəsait ayrılmışdırsa, 2009-cu ildə bu göstərici 3522058,9 min manat təşkil etmişdir. Xidmət sahələri üzrə obyetlərin tikintisinə 1507079,2 min manat ayrılmışdırsa, 2012-ci ildə bu göstərici müqayisədə 2,7 dəfə artaraq 8219000 min manat təşkil etmişdir, 2015-ci ildə isə bu artım 2012-ci ilə nisbətən 1,2 dəfə artmışdır.

**Cədvəl 2**

**İqtisadiyyatın tikinti sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər**

| Illər | 1997 | 2000 | 2001 | 2005 | 2010 | 2012 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|
| mln manatla | 4,91 | 112,95 | 113,97 | 580,17 | 925,14 | 1868, 23 | 2221,68 | 2123,47 |
| xüsusi çəkisi, faizlə | 0,5 | 11,7 | 9,7 | 10,0 | 9,3 | 12,1 | 12,6 | 13,3 |

**Mənbə:** cədvəl müəllif tərəfindən Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir.

Ümumiyyətlə, xarici investisiyaların ölkənin milli iqtisadiyyatının ayrı-ayrı sahələrinə cəlb edilməsi və tikinti materialları sahəsində son dövrlər istehsal prosesinin mövcud tempinin aşağı düşməsi, ümumi idxal olunan bütün məhsulların, o cümlədən, tikinti materialları bazarında idxal-ixrac sahəsində mövcud iqtisadi strukturun aşağı düşməsinə səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, postsovet ölkələrində olduğu kimi respublikamızda da xarici (o cümlədən daxili investorlar) investorlar tikinti və digər sənaye sahələrindən fərqli olaraq tikinti materialları sahəsinə ayırdıqları kapital qoyuluşlarının həcmi çox cüzi olmuş, müvafiq seqment

üzrə istehsal məhsullarına olan tələbatı idxal məhsulları hesabına (əsasən, Rusiya, Ukrayna, Belorusiya kimi və s. dövlətlərdən olmaqla) ödəmişlər.

Qeyd etmək lazımdır ki, əsaslı tikinti sahələrinə kapital qoyuluşunun həcminin 1997-ci ildən başlayaraq artması tikinti materialları bazarında tikinti materiallarına olan təklifin artmasına, iqtisadi sahələr üzrə istehsal prosesinin stabilləşməsinə və artmasına təsir edən faktor olmuşdur. Ümumiyyətlə, tikinti-quraşdırma işlərinə kapital qoyuluşunun artması mövcud iqtisadi sahələr üzrə müəssisələrin əlavə istehsal güclərinin işə düşməsinə, o cümlədən, yeni-yeni kapital qoyuluşları edilməsini təmin edir. Qeyd etmək lazımdır ki, tikinti quraşdırma sahələrinə kapital qoyuluşunun artması, o cümlədən, xarici investisiyların tikinti kompleksinə cəlb olunması bütün postsovet ölkələrində olduğu kimi, Azərbaycanda da aktual məsələlərdəndir.

Qabaqcıl dünya ölkələrinin təcrübəsi göstərir ki, tikinti sektoru üzrə investisiya fəallığının artırılmasında vətəndaşların, xüsusilə ölkədə fəaliyyət göstərən, sahibkarların maliyyə vəsaitlərinin, o cümlədən banklarda yığılmış vəsaitlərin cəlb olunması zəruridir. Tikinti sektoru üzrə müxtəlif təyinatlı vəsaitlərin investisiya yönümlülüyünü təmin etmək sahə üzrə fond birjasının formalaşdırılması, səhmlər üzrə təqdim olunan dividentlər banklara qoyulmuş əmanətlərin faizindən yüksək olmalı, səhmlərin səmərəli istifadəsi təmin olunmalıdır. Ümumiyyətlə, postsovet məkanı üzrə olduğu kimi respublikamızda da vətəndaşların maliyyə vəsaitlərinin investisiya fəaliyyətinə yönəldilməsi üçün mərkəz və regionlar üzrə olmaqla investisiya fondlarının formalaşdırılması mütləq hal hesab olunmalıdır. Ona görə də kapital qoyuluşlarının ilk növbədə xarici investisiyalar hesabına maliyyələşdirilməsi təmin edilməlidir.

Ümumiyyətlə, (tikinti materialları sənayesində) investisiya siyasəti iqtisadi baxımdan əsaslandırılmış investisiya proqramları çərçivəsində həyata keçirilməsi daha məqsədəuyğun hesab olunur. Müvafiq proqramın hazırlanması zamanı bunların nəzərə alınması zəruridir:

-iqtisadiyyatın müxtəlif sahələrinə investisiyaların yönəldilmə istiqamətlərinin müəyyənləşdirilməsi;

-investisiya fəaliyyətinin stimullaşdırılması prosesləri;

-investisiya qoyuluşlarının əsas mənbələrinin təyn olunması;

-ayrılmış investisiyaların səmərəlilik imkanları.

Göstərilən ardıcıllığın hər biri investisiya fəallığının təmin olunmasında əsaslandırılmış iqtisadi mexanizmlərin formalaşdırılmasını reallaşdırır. Buna görə də ölkəmizdə tikinti sektorunun inkişafında (o cümlədən tikinti materialları sənayesində) əlverişli investisiya mühitinin

yaradılması istiqamətində ilk növbədə beynəlxalq təcrübəyə əsaslanaraq investorlar konsorsiumu, investisiya bankları formalaşdırılmalı, dövlət və xüsusi bölmənin kapital qoyuluşunun maliyyələşdirilməsində müştərək iştirak üzrə formalar və s. təyin olunmalıdır.

Tikinti materialları sənayesi üzrə investisiya siyasətində ən əsas tədbirlərdən biri investisiya tələbinin artırılmasını təmin etməkdir. Bunun üçün ilk növbədə səmərəli formada amortizasiya və vergi siyasətindən (eləcə də lizinq əməliyyatlarından) istifadə olunması zəruridir. Müvafiq sənaye sahəsi üzrə iri həcmli mərkəz və regionlar üzrə investisiya layihələrinin maliyyələşdirilməsi maliyyə təsisatları tərəfindən heç də tam təmin olunmur. Məhz bu baxımdan respublikamızda milli maliyyə-sənaye qruplarının formalaşdırılması əsas faktor hesab olunmalıdır.

Ümumiyyətlə, tikinti materialları sənayesi üzrə xarici investisiyaların cəlb edilməsini təşviqləndirmək və səmərəliliyinin təmin olunması üçün bu tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur: tikinti materialları sənayesi üzrə birbaşa xarici investisiyaların sığortası və təminatı sistemi formalaşdırılmalı; xarici investorlar və investisiyaların yönəldilmə sahələri ilə bağlı elektron informasiya resursları yaradılmalı; milli və xarici investorlar üçün beynəlxalq standartlara uyğun statistik hesabat sistemi formalaşdırılmalı; sahə üzrə xarici investorların fəaliyyəti təmin olunan yeni yaradılmaqda olan müəssisələrin qeydiyyat və nəzarət sistemi düzgün tənzimlənməlidir.

Aparılmış tədqiqatlar onu göstərir ki, respublikanın regionlarında tikinti materialları üçün zəngin təbii resursları mövcuddur. Inşaat materiallarının istehsalı son dövrlər daha intensiv xarakter daşımağa başlamışdır. Lakin müsbət tendensiyalara baxmayaraq yenə də əsas tikinti materialları regional qonşu dövlətlərdən (Rusiya, Türkiyə, İran və s.) idxal olunur. Azərbaycanda tikinti materialları sənayesini inkişaf etdirmək mümkün olduğu halda iri həcmdə xarici valyuta idxal prosesinə sərf olunur. Məsələn, il ərzində Rusiya Federasiyasından 682 min $m^3$ uzununa doğranmış meşə materialları (dəyəri 44634,9 min ABŞ dolları), Ukraynadan 0,8 min $m^3$ eyni məhsul (dəyəri 129,5 min dollar), ağac yonqarlı plitələr – Rusiyadan 23041 $m^3$ həcmində (dəyəri 2371,4 min dollar), Türkiyədən 22470,1 $m^3$, dəyəri 4408,4 min dollar; ağac lifli plitələr Rusiyadan 3450 min $m^2$, (3087,6 min dollar həcmində), Türkiyədən 708,3 min $m^2$ (2006 min dollar), yapışdırılmış faner, Rusiyadan 63050,5 $m^3$ (dəyəri 6864 min dollar), Belorusiyadan 4324,1 $m^3$ (dəyəri 409,5 min dollar), odadavamlı kərpiclər, bloklar, plitələr – Ukraynadan 4841,4 ton (dəyəri 908,9 min dollar), Türkiyədən 1964,4 ton (dəyəri 1950,1 min

dollar); Keramikadan tikinti kərpicləri – Türkiyədən 1503,9 min ədəd (dəyəri 84,7 min dollar); keramikadan üzlük plitələr, Rusiyadan 1071,2 min $m^2$ (dəyəri 6560,3 min dollar), Irandan 545,5 min $m^2$ (dəyəri 1931 min dollar), qara metallardan borular – Ukraynadan 30178,6 ton (dəyəri 9079,1 min dollar), Rusiyadan 27426,8 ton (dəyəri 4869,2 min dollar) və s. alınmışdır.

**3. Azərbaycan respublikasının tikinti materialları sənayesində investisiyalardan istifadənin səmərəliliyinin artırılması yolları müəyyən edilmiş və təkliflər verilmişdir.**

Tikinti materialları müəssisələrində rəqabətqabiliyyətli məhsul istehsalının idarəedilməsi, tikinti sektorunun inkişafında tikinti materialları sənayesinin rolunun artırılması, ipoteka kreditlərinin müvafiq sahələrə təsirinin qiymətləndirilməsi, Azərbaycanın tikinti materialları sənayesinin prespektiv inkişafı müəyyənləşdirilmişdir.

Bütün dünyada müşahidə olunan qloballaşma prosesləri tikinti sektorunda, o cümlədən tikinti materialları sənayesində istehlakçı və istehsalçılar arasında iqtisadi münasibətlərin dinamik dəyişilməsinə gətirib çıxarmışdır. Nəticədə müasir rəqabət qabiliyyətli tikinti sektorunun tərkib hissələri, o cümlədən tikinti materialları sənayesi sürətlə inkişaf etməyə başlamışdır.

Postsovet məkanı ölkələrində olduğu kimi ölkəmizdə də qarşıda qoyulan əsas məsələlərdən biri regionlarda tikinti sektorunun, eyni zamanda tikinti materialları sənayesinin fəaliyyətini təkmilləşdirməkdən ibarətdir. Müvafiq istiqamətdə həyata keçirilən zəruri tədbirlərdən biri də ölkə regionlarına investisiya qoyuluşunu cəlb etməkdir. Tikinti sektoru üzrə investisiya qoyuluşlarının düzgün yönəldilməsi nəticəsində ayrı-ayrı istehsal sahələrinin o cümlədən tikinti materialları sənayesinin inkişafı, yeni sənaye obyektlərinin tikintisi daha da intensivləşəcəkdir.

Son dövrlər ölkəmizdə mövcud tikinti materialları sənayesinin rəqabətqabiliyyətliliyinin təmin olunması istiqamətində aşağıdakı tədbirlərin reallaşdırılması məqsədəuyğun hesab olunur:

-tikinti materialları sənayesi üzrə fəaliyyət göstərən müəssisələr hər zaman öz iqtisadi vəziyyətini tədqiq etmək imkanına malik olmalıdır;

-tikinti materialları sənayesinin iqtisadi göstəriciləri bazar konyukturasından asılı olaraq dayanıqlı olmalıdır;

-tikinti materialları üzrə ixtisaslaşan müəssisələr investisiya qoyuluşları zamanı mümkün riskləri nəzərə almalıdır.

Tədqiqatlar göstərir ki, mərkəz və regionlar üzrə tikinti materialları istehsalı üzrə ixtisaslaşmış müəssisələrin inkişaf etdirilməsi qeyd olunan

şərtlərdən asılıdır:

-bazarda mövcud rəqib şirkətlərin istehsal məhsulları üzrə qiymət qoymasından;

-mövcud şirkətlərin rəqabət qabiliyyətindən;

-tikinti müəssisələrinin maddi və xammal ehtiyatlarından səmərəli istifadə səviyyəsindən;

-yeni innovasiyaların tətbiqindən;

-investorların aktivlik dərəcəsindən.

Son dövrlər ölkəmizdə tikinti sektorunun, o cümlədən onun əsas tərkib hissəsi olan tikinti materialları sənayesi üzrə xidmətlər bazarında rəqəbət prosesinin, onun dövlət müdafiəsi sisteminin yaradılması istiqamətində bir sıra məqsədəuyğun proseslər həyata keçirilmişdir. Bu sahədə qəbul olunmuş qərarlara 2 iyun 1995-ci il "Haqsız rəqabət haqqında"; 2 dekabr 1997-ci il "Antiinhisar fəaliyyəti haqqında"; 4 oktyabr 1997-ci il "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təsdiq edilməsi haqqında"; 24 oktyabr 1997-ci il "Reklam haqqında" və s. göstərmək mümkündür. Müvafiq olaraq tərtib olunmuş qanunlar və onların təsdiq olunmuş normativ sənədləri Azərbaycan Respublikasının Konstitutsiyasında təsbit olunmuş rəqabət dövlət müdafiəsi sahəsində tələblərin reallaşması üçün zəruri hüquqi əsas yaratmışdır.

Tikinti materialları sənayesinin inkişafında, bu sahədə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün bu sahə üzrə respublikanın vergi strategiyasının işlənib hazırlanması zəruridir. Qeyd etmək lazımdır ki, düzgün vergi strategiyası dövlət səviyyəsində uzunmüddətli iqtisadi inkişaf proqramlarının hazırlanmasında mühüm əhəmiyyət kəsb edir. Hər bir dövlət öz iqtisadi siyasətini reallaşdıran zaman vergi sisteminin düzgün formalaşdırılmasına ciddi fikir verir. Belə ki, dövlət səviyyəsində iqtisadi sahələr üzrə həyata keçirilən marketinq fəaliyyəti strateji idarəetmə ilə sıx bağlıdır. Bunun üçün bəzən, dövlət milli tikinti strukturlarından beynəlxalq standartlara əməl olunmasını tələb edir ki, bu da ölkədə mövcud olan firmaların dünya miqyasında qəbul edilən səviyyədə məhsul hazırlamalarını təşviq edir, standartlara uyğun gələn əmtəə istehsal etmək üçün ixtisaslaşmış firmaların yaranmasına təkan verir. Bununla yanaşı əgər hər hansı bir ölkədə qəbul olunmuş standartlar digər ölkələrdəki analoji standartlardan geri qalırsa, bu rəqabət üstünlüyünü sarsıdır.

Tikinti sektorunun, o cümlədən, tikinti materialları sənayesi üzrə müəssisələrin fəaliyyətinə ipoteka kreditləri daha çox təsir göstərir. Məhz ipoteka prosesi investisiya qoyuluşu sisteminin yığılma mexanizminin və uzun müddətli (ipoteka) kreditinin aşağı faizlə müvafiq dövr ərzində hissə-

hissə ödənilməsini nəzərdə tutur. Tikinti sektoru üzrə ipoteka kreditlərindən həm yaşayış, həm də istehsal təsisatlarının alınması, tikintisi və yenidənqurma işlərinin maliyyələşdirilməsi üçün istifadə olunur. Qeyd etmək lazımdır ki, istənilən miqdarda borc vəsaitini almaq üçün borc alan tərəf istənilən tikinti mülkiyyətinin sahibi olmalıdır. Məhz girov əmlakı verilən borcların etibarlı təminatçısı kimi çıxış edir. Qoyulmuş girov əmlakının ümumi dəyəri azalanda belə, yenə də onun etibarlılıq təminatçısı kimi qalır.

Azərbaycan Respublikasının regionları üzrə tikinti sektorunun inkişafını təmin edəcək tikinti materialları istehsalı üçün geniş tikinti-xammal ehtiyatları mövcuddur. Son dövrlər ölkə üzrə tikinti sənayesinin mineral-xammal bazasını təşkil edən 300-dən artıq müxtəlif növ qeyri-filiz tikinti materialları yataqları kəşf olunmuşdur.

Müasir qloballaşma şəraitində müxtəlif mülkiyyət formalı müəssisələr tikinti materialları sahəsində istehsal proqramlarını müstəqil hazırlamalı və onların reallaşdırılması üçün maliyyə resurslarını təmin etməlidirlər.

İşdə ölkəmizdə fəaliyyət göstərən tikinti materialları sənayesinin investisiya fəaliyyəti tədqiq edilmiş və müasir iqtisadi şəraitdə onun maliyyələşdirilmə mənbələri göstərilmişdir:

1. büdcə vəsaitləri hesabına;
2. xarici investisiyalar;
3. başqa təşkilatların borc vəsaitlərinin cəlbi;
4. müəssisə və təşkilatların öz vəsaitləri hesabına;
5. bank kreditləri;
6. vətəndaşların xüsusi vəsaiti və sair vəsaitlər aid edilir.

Azərbaycan Respublikasında sovetlər hakimiyyəti quruluşuna kimi ölkənin təbii resursları zəif mənimsənilmiş nəqliyyat vasitələrin məhdud şəbəkəsi mövcud olmuş, regionlar üzrə aqrar sektorun fəaliyyəti aşağı olmuş, milli sənaye potensialının 90%-dən çox hissəsi təkcə Bakı şəhəri və ətrafında cəmləşərək məhsuldar qüvvələrin regionlar üzrə yerləşməsində olduqca qeyri-səmərəliliyə səbəb olmuşdur. Nəzərə almaq lazımdır ki, məhsuldar qüvvələrin ərazi üzrə səmərəli formada yerləşdirilməsi məqsədilə, o dövrlər ölkədə istismara verilmiş sənaye müəssislərinin 65%-dən çox hissəsi Abşeron iqtisadi rayonlarından kənarda, əsasən sənaye baxımından zəif inkişaf etmiş iqtisadi rayonlarda yaradılmışdır.

Tikinti materialları sənayesinin inkişafı ilk növbədə iqtisadi rayonlarındakı yerli xammal ehtiyatlarının istehsala cəlb etməklə, yeni tikinti sektoru üzrə istehsal sahələrinin yaradılması əsasında ölkənin ümumi

iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsinə nail olmaqdır.

Azərbaycan Respublikasının əksər iqtisadi regionlarında tikinti materiallarına olan tələbatın ödənilməsində ilkin təbii xammalla bərabər müxtəlif sənaye sahələrinin, o cümlədən, dağ-mədən, metallurgiya sənayesi, tikinti materialları istehsal edən müəssisələrin tullantılarının təkrar istehsal dövriyyəsinə cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Müxtəlif sənaye sahələri ilə bərabər, tikinti materialları sənayesində də yaranan təkrar xammal ehtiyatları müxtəlif tikinti sahələrində, magistral tranzit xətlərin çəkilməsində, təmirdə, yenidən qurulmasında istifadə oluna bilən mühüm materiallardan hesab olunur.

**Cədvəl 3**

**Azərbaycan Respublikasının iqtisadi rayonlarında 2015-ci ilə tikinti materialları üzrə qeyri-filiz faydalı qazıntı ehtiyatlarının payı, (%-lə)**

| İqtisadi regionlar | Mişar daşı | Üzlük daşı | Tikinti daşı | | Se-ment xam-malı | Qum çınqıl | Qum | Gil |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Beton və silikat məmulat-larının istehsalı | Əhəng xam-malı | | | | |
| 1. Abşeron | 51,7 | 5,8 | - | 20,2 | 28,4 | 1,2 | 26,0 | 21,0 |
| 2. Gəncə-Qazax | 14,7 | 8,6 | 71,3 | - | 3,4 | 16,9 | 2,6 | 7,3 |
| 3. Şəki-Zaqatala | - | - | - | 19,4 | - | 18,2 | 7,5 | 11,9 |
| 4. Lənkəran | 0,2 | - | - | - | - | 4,1 | - | 7,9 |
| 5. Quba-Xaçmaz | 1,9 | - | 3,3 | - | - | 10,1 | 26,2 | 6,9 |
| 6. Aran | 3,5 | - | - | 0,9 | - | 22,5 | 12,8 | 27,6 |
| 7. Yuxarı Qarabağ | 21,3 | 33,7 | - | 37,9 | 68,2 | 6,7 | 7,6 | 7,6 |
| 8.Kəlbəcər-Laçın | 3,5 | 3,6 | 25,4 | 19,4 | - | 5,6 | - | 2,3 |
| 9. Dağlıq Şirvan | 0,7 | 3,3 | - | 1,9 | - | 7,3 | - | 2,9 |
| 10.Naxçıvan | 2,5 | 45,0 | - | 0,3 | - | 7,4 | 17,3 | 7,6 |
| CƏMİ: | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |

**Mənbə:**cədvəl müəllif tərəfindən Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir.

Müasir iqtisadi şəraitdə ölkə regionlarının iqtisadi inkişafının təmin

olunması yönümündə mövcud çatışmamazlıqların aradan qaldırılması məqsədilə reallaşdırılması mühüm olan tədbirlər kompleksinə regionlarda əsaslı vəsait qoyuluşu siyasətinin, maddi-texniki təchizatın və maliyyə siyasətinin yenidən formalaşdırılması, müxtəlif yerli tikinti materialları istehsalının təşkili, tikinti kompleksinin milli iqtisadiyyatın digər sahələri ilə qarşılıqlı kooperasiya əsasında inkişafı məsələlərini də daxil etmək zəruridir.

Tədqiqatlar göstərir ki, tikinti-quraşdırma işlərinin ümumi dəyərinin əlli beş faizə yaxını tikinti materiallarının payına düşür. Məhz bu baxımdan da ölkənin ayrı-ayrı regionlarında yerli təbii və təkrar xammal resuslarının istehsal prosesinə cəlb olunması tikinti-quraşdırma işlərinin konkret vaxt üzrə reallaşdırılmasına, obyektlərin müxtəlif növ tikinti materialları ilə vaxtında və keyfiyyətli məhsullarla təmin olunmasına şərait formalaşdırır.

Aparılmış təhlillər göstərir ki, müasir bazar münasibətləri şəraitində iqtisadi regionlar üzrə tikinti sektorunun, o cümlədən tikinti materialları istehsalının inkişafına təsir edən aşağıdakı qeyd olunan məqsədəuyğun tədbirlərin həyata keçirilməsi zəruridir:

- mərkəz və regionlar üzrə təbii-iqtisadi imkanları, yerli şəraiti nəzərə alaraq regionların tikinti materiallarına olan tələbatını ödəmək və məşğulluq ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə, yerli xammal ehtiyatlarına və müasir kooperasiyaya əsaslanan tikinti materialları istehsalını genişləndirmək;
- regionlarda yerli təbii-iqtisadi xüsusiyyətlər nəzərə alınaraq tikinti materialları sənayesi sahəsində bazar iqtisadiyyatının tələblərinə uyğun yerli və xarici investisiyaların stimullaşdırılmış vasitələrlə cəlbinin həyata keçirilməsi, onların ixrac yönümlü rəqabətə davamlı məhsul istehsalına şərait yaradılması;
- ölkə regionlarında səmərəli investisiya siyasətinin reallaşdırılması məqsədilə investisiyaların tikinti sektoruna yönəldilməsilə, regionların sosial-iqtisadi inkişafına, müasir iş yerlərinin yaradılmasına, iqtisadiyyatın dinamik inkişafına təminat yaradılması.

### 4. Tikinti materialları sənayesində investisiyadan səmərəli istiIfadə və sahənin perspektiv inkişaf istiqamətləri.

Hazırda tikinti materialları sənayesinin inkişafının sabitləşdirilməsi baxımından dövlət tərəfindən azad shibkarlığın inkişaf etdirilməsinə üstünlük verilməli, istər daxili, istərsədə xarici investisiyaların istehsal sahələrinə yönəldilməsinə stimullaşdırıcı şərait yaradılmalıdır.

Belə ki, tikinti materialları sənayesinə əlavə investisiyaların cəlb

olunması məqsədi ilə maliyyə sənaye qruplarında müəssisələrin və təşkilatların könüllü birləşmələrinin mümkünlüyü vacib hesab olunur.

Azərbaycanda tikinti materialları sənayesində investisiya siyasəti investisiya proqramları çərçivəsində həyata keçirilməlidir ki, bu da ilk növbədə ölkə regionlarında tikinti materialları müəssisələri üzrə investisiyaların yönəldilmə istiqamətləri və maliyyə mənbələri müəyyən olunmalıdır.

Ölkədə inşaat materialları və məmulatları sənayesi müəssisələri regionlarda təbii resurs və insan potensialı nəzərə alınmaqla formalaşdırılmalıdır. Müasir iqtisadi şəraitdə istehsal sahəsində innovativ texnoloji dəyişikliklərlərin həyata keçirilməsi öz nöbəsində məhsulun modernləşdirilməsinə və çox çeşidli məhsul istehsalının təşkilinə öz təsirini göstərir, bu da regionların tələbatını ödəyən tikinti materialları və məmulatları üzrə ixtisaslaşmış kiçik və orta sahibkarlıq subyektlərin yaradılmasını zəruri edir.

Müasir dövrdə tikinti materialları sənayesində rəqabətqabiliyyətli, ixrac yönümlü, dünya standartlarına cavab verən daxili tələbatı ödəyən məhsul istehsalının təşkili zəruridir və bu istiqamətdə işlərin görülməsi vacib hesab olunur.

Bazar iqtisadiyyatı şəraitində tikinti sektorunun, o cümlədən tikinti materialları sənayesinin inkişafı vasitəsilə regionlarda müxtəlif iqtisadi sahələrin səmərəli inkişafını təmin etmək mümkündür.

Dövlət tərəfindən stimullaşdırıcı mexanizmlərinin tətbiq olunması müəssisələrin müəyyən bir coğrafi regionda qısa bir müddətdə əhəmiyyətli dərəcədə mənfəət əldə etməsi, onların rəqiblərinin fəaliyyət göstərdikləri regionlara genişlənmələrinə gətirib çıxarır. Bunun əsas səbəbi isə klasterlərin perspektivdə nəzərdə tutulduğu regionlarda müvafiq sahələrdə ixtisaslaşmış müəssisələrin innovativ texnologiya əsasında məhsul istehsalının təşkili istiqamətində işlərin yerinə yetirilməsi əsas götürülür. Rəqib müəssisələrin eyni mühitdə fəaliyyət göstərməsi, müştərilərin həmin regionda öz ehtiyaclarına uyğun ən sərfəli müəssisənin seçməsini asanlaşdırır. Belə bir vəziyyətdə müəssisələr arasındakı rəqabət artır və yeni innovasiyaların tətbiqi sürətlənir. Bununla da müəssisələr həm yerli, həm də qlobal bazarda rəqabət qabiliyyətliliyi əldə edirlər.

Hazırda sənaye parklarının yaradılması ölkə iqtisadiyyatında həyata keçirilən sənayeləşmə siyasətinin tərkib hissəsi olmaqla, ölkə iqtisadiyyatının şaxələndirilməsinə, sənaye sahələrinin inkişafına və səmərəliliyinin artırılmasına, ərazilərdən və digər resurslardan səmərəli istifadə edilməsinə, kiçik və orta sahibkarların dəstəklənməsinə, əhalinin

məşğulluğunun təmin olunmasına əhəmiyyətli töhfə verəcəkdir.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**


1. Ramazanov V.Z. Azərbaycanın tikinti materialları sənayesində investisiya qoyuluşlarının əsas istiqamətləri. // A.M.E.A.-nın İqtisadiyyat İnstitutu, Elmi Əsərləri, B, 2012, №4 səh. 264-268.
2. Ramazanov V.Z. Вопросы повышения конкурентоспособности в промышленности строительных материалов Азербайджанской Республики. // Инвестиции. Практика та досвид, Украина, г. Киев, 2012, №21, стр.78-80.
3. RamazanovV.Z. Tikinti sektorunun inkişafında tikinti materialları sənayesinin rolunun artırılması məsələləri. // A.M.E.A.-nın İqtisadiyyat İnstitutu, Elmi Əsərləri, B, 2013. №4 səh.319-324.
4. Ramazanov V.Z. Зарубежный опыт првлечения инвестиций в строительство жиля./Проблемы и преспективы инновационого развития экономики. Материалы XVIII между-народный научно-практической конференции. Украина, г.Ялта, 30сентября-06 октября 2013, стр.288-290.
5. Ramazanov V.Z. Azərbaycanın tikinti materialları sənayesinin prespektiv inkişafı. // A.M.E.A.-nın İqtisadiyyat İnstitutu, Elmi Əsərləri, B, 2014, №4 səh.359-365.
6. Ramazanov V.Z. Tikinti materialları müəssisələrinin maliyyə təminatı. // A.M.E.A.-nın İqtisadiyyat İnstitutu, Elmi Əsərləri, B, 2014, №2 səh.363-368.
7. Ramazanov V.Z. Tikinti materialları sənayesində innovasiyaların tətbiqində investisiyalardan istifadə. // A.M.E.A.-nın İqtisadiyyat İnstitutu, AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, B, 2016, №4 səh.99-107.

**Вилаят Захид оглы Рамазанов**

**Повышение эффективности использования инвестиций в развитии промышленности строительных материалов**

**Резюме**

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

**В первой главе - "Теоретико-методологические основы исследования использования инвестиций в развитии промышленности строительных материалов"** изучены роль инвестиционных вложений в развитии экономики страны, сущность, структура и прогнозируемы методы инвестиций на предприятиях строительных материалов.

**Во второй главе-"Анализ и оценка эффективное использовании инвестиций в промышленности строительных материалов"** - показаны производственный потенциал и инвестиционная привлекательность промышленности строительных материалов Азербайджана, использование инвестиций при внедрении инноваций в отрасли и изучена финансовая обеспеченность предприятий строительных материалов.

**В третьей главе -"Пути повышения эффективности инвестиций в промышленности строительных материалов Азербайджанской Республике”-** исследованы повышение конкурентоспособности промышленности строительных материалов, роль ипотеки в обеспечении роста инвестиций в развитии строительного сектора и определены перспективные направления развития промышленности строительных материалов Азербайджана.

В заключении даны выводы и предложения, полученные в результате проведённого исследования.

**Ramazanov Vilayat Zahid oglu**

## Improving the efficiency of investment in the development of the building materials industry

### Summary

The thesis consists of an introduction, three chapters, conclusion and bibliography.

**In the first chapter** – "Theoretical and methodological bases of research Investment in the development of the building materials industry"-studied the role of investments in economic development, the nature, structure and predictable method of investments in enterprises of building materials.

**In the second chapter** – "Analysis and evaluation of effective use of the investment in the building materials industry"-shows production potential and investment attractiveness of the building materials industry of Azerbaijan, the use of investment in introducing innovations in the industry and examine the financial security of the enterprises of building materials.

**In the third chapter** – "Ways of improving the efficiency of investment in the building materials industry of the Azerbaijan Republic"-investigated by increasing the competitiveness of the industry of building materials, the role of the mortgage in the growth of investments in the development of the construction sector and perspective directions of development of the industry of building materials in Azerbaijan.

In conclusion, given the conclusions and suggestions received as a result of the study

Format: 60x84 16/[1]
Tiraj:100
AMEA-nın mətbəəsində çap olunub